# Laçında kədər qürura qovuşdu



**1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri Xocalıda dinc əhaliyə divan tutdu. Qan sızan bu qətliamdan uzun illər keçsə də, hələ də dünya birliyi bu faciəni törədənləri qınamayıb, erməni vəhşiliyinə layiq olduğu siyasi və hüquqi qiyməti verməyib.**

Azərbaycanlı olduğuna görə qətlə yetirilən soydaşlarımızın qisası isə 30 ildən sonra alındı. 44 günlük zəfər savaşında və keçən ilin sentyabrında keçirilmiş antiterror tədbirində şanlı ordumuz müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Qarabağı və Şərqi Zəngəzuru erməni işğalından azad etdi. Şəhid qanı ilə suvarılan torpaqlarımızda bu gün müqəddəs bayrağımız dalğalanır, azadlığa qovuşan yurdumuz azad nəfəs alır.

Bu qürurverici durum düşmənə gözdağı olmaqla nankor qonşularımızdan, faşist xislətli cinayətkarlardan alınan layiqli qisasın məntiqi nəticəsidir. Faciənin 32-ci ildönümündə Prezident İlham Əliyevin Xocalıda olması, faciə qurbanlarının xatirəsini ehtiramla yad etməsi bizim üçün böyük təsəllidir. Eyni zamanda erməni ideoloqlarına bir mesajdır: bir daha xam xəyallara düşməyin, birdəfəlik anlayın ki, Qarabağ indi öz əzəli sahibindədir, etibarlı əllərdədir.

Fevralın 26-da saat 17:00-da Azərbaycanın bütün ərazisində olduğu kimi, Laçın rayonunda da Xocalı soyqırımı qurbanlarının xatirəsi birdəqiqəlik sükutla yad edildi. Bu barədə Şərqi Zəngəzur iqtisadi rayonunda 2 saylı Bərpa, Tikinti və İdarəetmə Xidmətinin ictimaiyyətlə əlaqələr şöbəsindən aldığımız məlumatda bildirilir ki, şəhərin küçələrində nəqliyyat vasitələrinin hərəkəti həmin anda dayandırılıb, kənd və qəsəbələrdə Azərbaycanın Dövlət bayraqları endirilib.

Xocalı soyqırımının 32-ci ildönümünə həsr olunmuş anım tədbirində Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin rəsmiləri, Şərqi Zəngəzur 2 saylı Bərpa, Tikinti-İdarəetmə Xidmətinin, "Laçın Abadlıq Xidməti" ASC-nin rəhbərliyi, Laçın şəhər 2 nömrəli tam orta məktəbin, eləcə də şəhid Ədalət Məmmədov adına Zabux kənd tam orta məktəbinin kollektivi, yerli sakinlər, o cümlədən hərbçilər, hüquq-mühafizə orqanlarının əməkdaşları iştirak ediblər.

Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin baş məsləhətçisi Hüseyn Quliyev çıxış edərək bildirib ki, xalqımız tarixən bir çox soyqırımlara məruz qalıb və onlardan biri də Xocalı soyqırımıdır: "32 il əvvəl ermənilərin Xocalı şəhərində dinc əhaliyə qarşı törətdikləri vəhşiliklər heç vaxt unudulmayacaq. Xocalı soyqırımı təkcə Azərbaycanın deyil, dünya tarixinə də ən faciəli səhifələrdən biri kimi daxil olmuşdur. Amma ermənilərin törətdikləri vəhşiliklər xalqımızın mübarizə əzmini qıra bilməyib. Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu Vətən müharibəsində şanlı zəfər qazanmaqla Xocalı soyqırımı qurbanlarının qisasını aldı. İnanırıq ki, bundan sonra Ali Baş Komandanın və məğrur ordumuz sayəsində ölkəmiz, xalqımız bu cür faciələri bir daha yaşamayacaq".

Tədbirin rəsmi hissəsindən sonra "Lacinema" kino mərkəzində "Yarımçıq xatirələr" adlı film nümayiş olunub.

***Lazım QULİYEV.***
***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 28 fevral, № 45.- S.7.